**AZƏRBAYCAN RESPUBLİKASI**
**DÖVLƏT STATİSTİKA KOMİTƏSİNİN APELLYASİYA ŞURASI**

**Q Ə R A R**

**№ 8**

**Bakı şəhəri** **19 noyabr 2021-ci il**

Apellyasiya Şurası Dövlət Statistika Komitəsi sədrinin birinci müavini - Apellyasiya Şurasının sədri Vahab Feyruz oğlu Məmmədovun sədrliyi ilə Günay Zahid qızı Cahangirlinin Dövlət Statistika Komitəsi aparatında Əmək statistikası şöbəsinin İşçi qüvvəsinin tədqiqatı sektorunun baş məsləhətçi vəzifəsinin tutulması üçün 2021-ci il oktyabr ayının 12-də keçirilən müsabiqə üzrə müsahibənin nəticəsinə dair şikayətinə baxaraq müəyyən etdi:

Namizəd Cahangirli Günay Zahid qızı Dövlət Statistika Komitəsi aparatında Əmək statistikası şöbəsinin İşçi qüvvəsinin tədqiqatı sektorunun baş məsləhətçi vəzifəsinin tutulması üçün Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən 2021-ci il sentyabr ayının 3-də elan edilmiş müsabiqənin müsahibə mərhələsində iştirak etmişdir. Müsahibə 2021-ci il oktyabr ayının 12-də Dövlət Statistika Komitəsinin Əmək statistikası şöbəsinin müdiri Nemət Xuduzadə, Dövlət İmtahan Mərkəzinin nümayəndəsi Rövşən Əsədov və müstəqil ekspert Aynur Cabbarovadan ibarət komissiya tərəfindən keçirilmişdir. Cahangirli Günay Zahid qızına müsahibə komissiyasının üzvlərindən R. Əsədov və A. Cabbarova 16 bal, N. Xuduzadə 15 bal vermiş və nəticədə iştirakçı 15,7 bal toplayaraq müvəffəqiyyət qazana bilməmişdir.

Müsahibənin nəticəsindən narazı qalan namizəd "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 29-1-ci maddəsinə və "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 29 dekabr tarixli 435 nömrəli Fərmanının 3.23-1.1-ci yarımbəndinə əsasən Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin Apellyasiya Şurasına 13.10.2021-ci il tarixdə şikayət ərizəsi ilə müraciət etmişdir.

Apellyasiya Şurasının iclasında aparılmış müzakirələrə əsasən müsahibə komissiyasının üzvləri tərəfindən namizədin vəzifəyə uyğun hesab edilmədiyi müəyyən edilmişdir.

Yuxarıda göstərilənlər və Apellyasiya Şurası üzvlərinin müzakirələrdən sonra gəldiyi yekun nəticə nəzərə alınaraq Dövlət Statistika Komitəsinin Apellyasiya Şurası **qərara aldı**:

1. Cahangirli Günay Zahid qızının 13 oktyabr 2021-ci il tarixli apellyasiya şikayəti təmin edilməsin və Dövlət Statistika Komitəsi aparatında Əmək statistikası şöbəsinin İşçi qüvvəsinin tədqiqatı sektorunun baş məsləhətçi vəzifəsinin tutulması üçün 2021-ci il oktyabr ayının 12-də keçirilən müsabiqə üzrə müsahibənin nəticəsi qüvvədə saxlanılsın.

2. S.Süleymanova Dövlət Statistika Komitəsinin Apellyasiya Şurasının qərarı qəbul edildiyi gündən onun surətini üç gün müddətində Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinə təqdim edilməsini təmin etsin.

3. Qərardan Azərbaycan Respublikasının Prezidenti yanında Apellyasiya Şurasına şikayət verilə bilər.

**Sədr** **Vahab Məmmədov**